Ədalət 2019.- 9 noyabr.- S.16.



***Qəşəm İsabəyli***
***Beynəlxalq Andersen Şərəf Diplomu laureatı***

# "Zeynəb cığalçılıq edir" silsiləsi

## Şəm-şəmin şikayəti

Zeynəb cığalçılıq edir,
Guya bizə acıq edir.

Yeməyi vaxtında yemir,
Yeməyən vaxtlarda yeyir.

Durmağın vaxtında durmur,
Durmayan vaxtlarda durur.

Yatmağın vaxtında yatmır,
Yatmayan vaxtlarda yatır.

Üstünü örtürsən - açır,
Üstünü açırsan - örtür.

Guya bizə acıq edir,
Zeynəb cığalçılıq edir.

## Kimi çox istəyirsən

-Ananı çox istəyirsən?
Atanı çox istəyirsən?
-Hamıdan çox deyirsən?
-Bəli.
-Mələk müəlliməni!

-Niyə müəlliməni,
Niyə bəs ananı yox?!

-Anamın saçı qısadı,
Əlləri də yep-yekə!
Mələk müəllimənin
Həm saçı çox uzundu,
Həm də ovcuma sığır
Əlləri!

## Qarğış

Səhərdən deyinir babam:
-Ayağı sınsın dəqiqənin,
Yolu yumrulansın
Saatın,
Boyuna qamış ölçüm
Günlərin!
Toz kimi yox olur həyatım!
-Ay baba?!
-Can!
-Kimlə savaşırsan?!
-Zamanla!
-Zaman kimdi?
-Bu gün, bu saat, bu an...
-Hez nə başa düşmürəm!
-Ay şəm-şəm,
Günlər tez kezir yaman,
Tez kezir yaman -
Həftənin başı olmamış,
Bir də görürəm ayağıdı!
Qarğış eləyirəm ona görə də:
"Yolu yumrulansın günlərin!"
-Qarğış eləmə, ay baba?!
-Niyə?!
-Balaca qalaq, deyirsən?!

## Zəif

-Məktəbimiz zox zəifdi!
-Zəif nəyə deyirsən?
-Uşaqlar dərsdən qaçır.

## Küçük və Çaqqal

Hava elə qaraldı,
Qorxu düşdü
Küçüyün canına.

Boylanıb baxdı
O yan-bu yanına,
Gördü
Yata bilməyəcək.
Nə fikirləşdisə,
Birdən ayı kimi
Bağırdı.

O dəqiqə kəndin itləri
Bir-birinə qarışdı.

Küçük gülümsəyib,
Başını qoydu
Pəncəsinin üstünə:
-Zaqqal girə bilməz kəndə,
Rahat yataram mən də!

Qonşu itləri ta səhərəcən
Ağızlarına "Bəsdi!" demədi.
Küçük hərdən ayılır,
Gülümsəyir,
Yenidən başını qoyurdu
Pəncəsinin üstünə:
-Çaqqal girə bilməz kəndə,
Rahat yataram mən də!

## İldırım

-Nə yaxşı, deyirəm,
Evimiz var, ata,
Yoxsa
Başımıza düşərdi
İldırım!

## Baaa...

Göy guruldadı,
Zeynəb bağırıb,
Üstümə yüyürdü:
-Baaa...

## Külək

-Açıq qoydun qapını,
Külək hirsləndi, ata.
Elə çırpdı -
Diksindim.

## Nə olsun

Nə olsun bacımdı Zeynəb,
Nə olsun zox istəyirəm!
Səhv işini görən kimi
Üzünə deyirəm!

## Şirni-quş

Yeyib şirni-quşunu,
Zeynəb ağladı birdən.
-Nə oldu, Zeynəb, sənə,
Niyə ağlayırsan, hə?
-Ağzıma hirslənmişəm,
Yaman acgözdü ağzım!
Yedi şirni-quşumu,
Yox oldu birdən yazıq!

## Şəm-şəm və Zeynəb

Atamın bərkdi qucağı,
Babamın qucağı yumşaq.
Qardaşım paxıllıq edir:
-Düş yerə ordan, ay uşaq!
-Niyə düşüm?
-Düş deyirəm!
-Düşüm, sən gəlib minəsən?!